**G.H.MEHDİYEVA**
*filologiya üzrə fəlsəfə doktoru, baş müəllim*
*e-mail: gulbeniz57@ mail.ru*
**:https://orcid.org/0000-0002-2561-1591**

**Bakı Slavyan Universiteti**
(Bakı şəh., S.Rüstəm küç., 33)

**10.62021/0026-0028.2024.4.296**

# TƏHSİLDƏ SƏRBƏSTLİK VƏ MOTİVASİYA

***Xülasə.*** *Məqalədə xarici və daxili motivasiyadan bəhs edilir. Xarici motivasiyanın əksi daxili motivasiyadır. Bu zaman insan özünə lazım olanı edir (məsələn, maraqlanır və ya həyəcanlanır – özünü sınamaq istəyir). Bununla belə, daxili motivasiyanı inkişaf etdirmək üçün insan müəyyən bir hərəkət azadlığını hiss etmək seçimini hiss edir. Sadəcə olaraq, insana azadlıq lazımdır. Daha yaxşı təlim nəticələri – tədqiqat göstərir ki, azadlıq daxili motivasiya və rifahın inkişafına gətirib çıxarır. Bu təkcə şagirdin aldığı qiymətlərə deyil, həm də ümumi təhsil istəyinə təsir göstərir. Motivasiya insanın müəyyən məqsədə doğru çalışmasına səbəb olan amillər toplusudur. Motivasiya anlayışı sosiologiya, biologiya və politologiya tərəfindən öyrənilir. Motivasiya insanın ehtiyacları ətrafında qurulur və onları təmin etməyə çalışarkən daim inkişaf edir, ehtiyaclar iyerarxiyasının növbəti mərhələsinə keçir və insan fəaliyyətinin əsas mənbəyidir. Bu, idrak və praktik fəaliyyətlərə də aiddir. Motivasiya zahiri və daxilidir. Birinci halda o, xarici şəraitlə, ikinci halda isə daxili motivlərlə bağlıdır. Motivasiya müsbət və mənfi olur. Araşdırmalar göstərir ki, daxili motivasiyalı insanlar həyatda xarici motivasiyalı insanlardan daha uğurlu olurlar. Xarici motivasiyaya sahib olanlar xarici motivasiya dayandırıldıqda yaxşı nəticə göstərməyəcəklər. Alimlər daxili və xarici motivasiya nəzəriyyəsini dəstəkləyirlər. Bu nəzəriyyə xarici və ya daxili amillərin təsiri nəticəsində insanların davranışlarında özünü göstərir. Hər hansı bir fəaliyyətin təşkilində özünüzü və başqalarını bir şey etməyə ruhlandırmaq üçün motivasiya çox vacibdir. Motivasiyanın öyrənilməsi böyük əhəmiyyət kəsb edir. Bu, mahiyyətcə insanları onların fəaliyyətlərinə və spesifik xüsusiyyətlərinə əsaslanaraq öyrənmək deməkdir. İnsan fəaliyyətinin spesifik xüsusiyyəti onun həmişə məqsədyönlü olmasıdır. Motivasiya (latınca movere – hərəkət etmək, itələmək deməkdir) insanı ehtiyacların ödənilməsi ilə əlaqədar hərəkətə sövq edən amillərə aiddir. Motivasiya insanı fəaliyyətə sövq edir və onun fəaliyyət istiqamətini müəyyən edir. Bu iki aspekt bir-biri ilə vəhdət təşkil edir və motivasiyanın əsas funksiyaları kimi görünür. Motivasiya onlarda təzahür edən ehtiyac növünə, aldıqları formalara, genişliyinə və ya məhdudluğuna, fəaliyyətin spesifik məzmununa görə bir-birindən fərqlənir. Mürəkkəb fəaliyyət növləri, bir qayda olaraq, bir motivə deyil, eyni vaxtda fəaliyyət göstərən və qarşılıqlı təsir göstərən bir neçə motivə cavab verir ki, bu da insan hərəkətlərinin və əməllərinin şaxələndirilməmiş motivasiya sistemini təşkil edir.*

***Açar sözlər:*** *Motivasiya, tələbə, özünüidarə, soyuqqanlılıq, müəllim, peşəkarlıq, təvazökarlıq*

Təhsilə münasibətdə Heydər Əliyev ənənəsi ondan sonrakı dövrdə də davam edir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev yeni dövrdə yeni təhsil sistemi, o cümlədən yeni ali təhsil sisteminin yaradılması məqsədilə insan kapitalının yaradılması konsepsiyasını irəli sürdü. Təhsilin inkişaf etdirilməsi ilə bağlı yeni dövlət proqramları təsdiq edildi. Azərbaycan 2005-ci ildə Bolonya prosesinə qoşuldu. Bununla da faktiki olaraq ali təhsildə aparılacaq islahatların istiqaməti müəyyən edildi [1, s. 426].

Bu məqalədə motivasiyadan söz açmaq istərdik. Motivasiya nədir? Motivasiya həyatımızda daim müşahidə olunan keyfiyyətdirmi? Nə zaman motivasiya yaranır? Motivasiyanı yaradan amillər hansılardır? Müəllimin motivasiyası olmadıqda nə baş verə bilər.

**Motiv** latınca *movere* – sözündən olub ilkin mənası itələmək, hərəkətə gətirmək, insanı fəaliyyətə təhrik etmək dəməkdir.

Uzun müddət müəllimlər olduqca səciyyəvi, tipik motivasiya üsullarına meyilli idilər. Yəni tələbə, şagird bir tapşırığı yerinə yetirmədikdə pis qiymətlər vəd edilməsi, yaxud da əmr tonunda şablon təlimatların verilməsi: “Bunu et”, “hazırla”, “cavab ver” və s. Nəzərinizə çatdırdığımız nümunələr xarici motivasiya vasitələrinə aiddir. Məsələ burasındadır ki, tələbə, şa-

gird müəllimin ondan tələb etdiyi işi yerinə yetirmək üçün hansısa xarici stimulla yönləndirirlər, ancaq bu həvəs bitərsə, motivasiya onunla birlikdə "yox olar"dı.

Motivasiya müəyyən fəaliyyətə başlamaq təşəbbüsüdür və həmin fəaliyyəti davam etdirmək əzmkarlığıdır [4, s. 143]. Xarici motivasiyanın əksi daxili motivasiyadır. Bu zaman insan nəyə ehtiyac duyarsa onu edər (məsələn, maraqlanar və ya həyəcanlanar – özünü sınamaq istər). Ancaq daxili motivasiyanı inkişaf etdirmək üçün insan özündə müəyyən bir hərəkət azadlığını hiss etmə seçimini – məsələn, oxumaq və ya oxumamaq problemini müstəqil olaraq həll etməsinə inanmalıdır. Sadə dillə desək, insana sərbəstlik lazımdır.

Alimlər təhsildə sərbəstliyə üstünlük verərək tədrisin iki əsas məziyyətlərindən düzgün nəticə çıxarılmasını vurğulayırlar.

Daha yaxşı təlim nəticələri – tədqiqatlar göstərir ki, sərbəstlik, daxili motivasiyanın inkişafına və rifahına səbəb olur. Bu təkcə tələbənin və ya məktəblinin qiymətlərinə, yəni uğursuz və müvəffəqiyyət səviyyəsinə, həm də onun ümumi təhsil istəyinə təsir göstərir [2, s. 123]. Bu zaman müəllimin həvəs və motivasiyasının tükənmə ehtimalı azalır, müəllim var qüvvəsi ilə öz üzərində çalışaraq, əlavə mənbələrdən istifadə edərək bilik səviyyəsini genişləndirir. Şagirdin və ya tələbənin diqqətini müəyyən fənnə və ya uğurlu motivasiya sayəsində keçilən dərsə (keçilən dərsdən daha effektiv və daha gözəl məhsuldar nəticə almaq) yönləndirmək bacarığı müəllimin öz işindən məmnunluq duyması ilə nəticlənir. Müəllim şagirdlərə sərbəstlik verərkən, qarşısında iki məqsədi olur. Birinci onların psixoloji ehtiyaclarını ödəmək və öyrənmə motivasiyasını inkişaf etdirmək, ikinci məqsəd isə şagirdlə müəllim arasında mehriban münasibət qurmaq (xarici təzyiqə ehtiyac olmadan) onda fənnə qarşı maraq oyatmaq və ətrafında olanların da öyrənmə motivasiyasını qoruyub saxlamaqdır. Motivasiya bizi müəyyən istiqamətlərə yönəldən müxtəlif fəaliyyətlərə sövq edən daxili hissdir. Öyrənmə və motivasiyanın hər ikisi performans üçün çox vacibdi: öyrənmə bizə bilik və bacarıqlar əldə etməyə, motivasiya isə öyrəndiklərimizi göstərmək üçün təkan verir. Çox motivasiyalı insanlar daha çox nəticələr əldə edirlər [3, s.48]. Deməli, yalnız güclü motivasiya sahib olan müəllimlər – ümumiyyətlə, insanlar yüksək nəticə əldə edə bilərlər.

Əksər müəllimlər mühazirə, seminar keçdikləri dərslərin, (müəllimin aktiv fəaliyyətinin tələbə-şagird tərəfindən qiymətləndirilməsi) maraqlı olub-olmayacağı ilə maraqlanırlar. Bu çox düzgün fikirdir. Sərbəstliyi dəstəkləyən müəllimlər tələbələrdən keçdikləri mühazirə və ya dərs haqqında nə düşündüklərini öyrənməlidirlər. Tələbələrə bu sual əyləncə məqsədilə deyil, tam səmimi verilməlidir. Burada müəllimlik fəaliyyətində bu sənətə xas olan, çoxları tərəfindən unudulan bir keyfiyyət – təvazökarlıqdan bəhs edirik. Yuxarıda diqqətə çatdırdığımız situasiyalarda məhz müəllimin gözəl keyfiyyətlərə malik olması vurğulanır. "Bu, təvazökarlığa istiqamətlənir, çünki müəllim anlayır ki, ona və onun keçdiyi dərsə dəqiq qiymət verən tələbələridir. Müəllim peşəkarlığının meyarı tələbənin rəyidir. Bu zaman tələbədə və ya şagirddə özünəməxsus şəxsi fikrin yaranması rəyvermə bacarığının ilkin təməli qoyulur. Bu proses həm də özünəinamı qüvvətləndirir. Müəllimin keçdiyi dərs haqqında fikir söyləmələr, rəy vermələr müxtəlif şəkildə ifadə oluna bilər: "Dərs üçün təşəkkür edirik və ya edirəm" və s.

Motivasiya öyrənmə strategiyalarına və fərdin idrak proseslərinə təsir edir Əlbəttə ki, onlar (tələbələr) hələ dərs prosesinin məzmununu mühakimə edə bilməzlər, lakin bu proses mütəmadi davam edərsə artıq tələbə və ya şagirdin şəxsi fikri yaranmış olur və sonra proseslər getdikcə inkişaf edərək analizlərə, təhlillərə çevrilir. Amerika Birləşmiş Ştatları Milli Elmlər Akademiyasının 2012-ci ildən üzvü olan, Stenford Universitetinin professoru Kerol Dvek Motivasiya sahəsində dünyanın aparıcı ekspertlərindən biri "Böyüklərin və uşaqların inkişaf psixologiyasına yeni baxış" adlı elmi monoqrafiyası Dünya Təhsil Federasiyası tərəfindən ilin kitabı kimi tanınmışdır. O yazır: "Motivasiya, öyrənmə strategiyalarına və fərdin idrak proseslərinə təsir edir". Amerikalı psixoloq Kerol Dvek beynimizin öyrənmə problemlərini və həlletmə bacarığının inkişafını mümkün hesab edildiyi "inkişaf yanaşması" konsepsiyası barədə araşdırma aparmış və həlli bir qədər çətin olan problemlərə dair düşünmənin iki tərzi haqqında söhbət açır [5, s. 89].

Motivasiya sahəsində dünyanın aparıcı ekspertlərindən bəziləri onun tətbiqini "Elastik şüur" adlandırır [6, s. 59].

Mütəxəssisər yazırlar ki, adətən hər bir müəllim işini asanlaşdırmaq üçün öz maraqlarına görə hərəkət edir – bu, tamamilə təbiidir. Məqsəd tələbələrə sərbəstlik verməkdirsə, o zaman onların maraqlarını sevimli mövzulara, kitablara, və resurslara cəlb etmək vacibdir. Bunun sayəsində onlar oxumağa daha çox maraq göstərəcək və cəlb olunacaqlar. Burada psixoloji durumları da unutmaq olmaz. Yeri gəlmişkən, bir sıra xarici universitetlər yuxarı kurs tələbələrinə və ya məzunlara öz maraqlarına uyğun olaraq təhsil proqramlarını yazmağı təklif edirlər. Bəzən belə proqramların seçilmiş mövzuları təcrübəli müəllimləri təəccübləndirəcək, lakin ekspertlər qeyd edirlər ki, bu, standart akademik yanaşmanı diversifikasiya, yəni müxtəliflik, rəngarəng (diversifikasiya – tələbənin diqqətini tədrisə cəlb etməkdən ötrü müxtəlif məqamlardan istifadə) etmək üçün düzgün hesab edilən yoldur. Eyni zamanda sərbəstliyi, səriştəni və özünəgüvəni inkişaf etdirən dərs mühitini yaratmaq deməkdir. Bu təcrübədən Amerikanın bir neçə ştatında istifadə etmişlər. Və bu çox gözəl nəticə vermişdir. Tələbənin marağını nəzərə almaq müəllimin fəaliyyətindəki ən öndə keyfiyyətdir.

Belə bir sual yarana bilər ki, yuxarıda qeyd etdiyimiz fikir və təcrübələr tələbələr üçün çox deyilmi?! Yəni tələbələrin ehtiyaclarını ödəmək onları "ərköyünləşdirmək" demək deyilmi?!

Bu məqamda şifahi xalq ədəbiyyatına müraciət edək, çox işlək, dilimizdə daim işlənən atalar sözü vardır: "Elin gözü tərəzidir" – deyərlər. Uzun illər boyu tədrisdə müəllim kimi fəaliyyət göstərdiyimiz və qazandığımız təcrübələrdən nəticə çıxararaq demək istərdik ki, bu prinsip üzrə hərəkət edən müəllimin gözü (irəli-geri) tərəzi olmalıdır. Yuxarıda psixoloji durumdan bəhs etmişdik. Öz müqəddəratını təyinetmə, özünüinkişaf istiqamətini müstəqil seçmək böyük bacarıqdır. İnsanın sağlam və dolğun ömür sürməsi üçün qabiliyyət və imkanlara malik olması həyatın əsas qanunlarındandır. Müstəqil seçim etmək üçün sərbəst olmaq vacibdir. Bacarıq həyata keçirilə bilən, vacib tələbdir. Əgər dərs zamanı tələbələrə çətin tapşırıq versəniz, tələbələr tez həvəsdən düşəcək, əgər çox asan versəniz, darıxacaqlar. Deməli, orta həcmli bir neçə tapşırıq seçmək ya da auditoriyanın bilik səviyyəsindən asılı olaraq seçilmiş tapşırıqları vermək məqsədə uyğundur. Şagirdlərin bir-biri ilə qarşılıqlı əlaqəsi – qrup işi, müzakirələr, cütlük tapşırıqlar bu tələbi yerinə yetirməyə kömək edir. Bu vəziyyətdə səbr təkcə tələbələrə deyil, bütövlükdə təhsil prosesinə də aid edilir. Bir dərsdə qədər çox tapşırıq vermək və tez bir zamanda həllini tələb etmək nə qədər düzgündür?! Sual verərkən – bir az gözləmək, tələbələrə düşünmək üçün ən azı on saniyə vermək, onları tələsdirməmək, sadəcə səbirlə gözləmək lazımdır.

Müəllim birinci dəfə auditoriyaya daxil olarkən ilk anlardan başlayaraq auditoriyanın əhvali-ruhiyyəsini, fəaliyyət və imkanlarını ilkin mərhələdə seçilmiş metodlardan istifadə etməklə aydınlaşdırmalıdır. Müəllim ünsiyyətin təşəbbüskarı kimi çıxış etməli və bu prosesdə uğur əldə etmək üçün şagirdlərlə pedaqoji ünsiyyət qurmalıdır. Müəllimin şagirdlərlə təlim-tərbiyə prosesində həyata keçirdiyi ünsiyyət peşə ünsiyyətidir. Buna çox zaman "pedaqoji ünsiyyət" də deyilir. Düzgün qurulmayan pedaqoji ünsiyyət qorxu, inamsızlıq yaradır, diqqətin, hafizənin, iş qabiliyyətinin zəifləməsinə səbəb olur. Pedaqoji ünsiyyət, ümumiyyətlə, ünsiyyətin bütün xüsusiyyətlərini özündə əks etdirir.

İnsanlar arasında informasiya mübadiləsi, qarşılıqlı təsir prosesi, bir-birinin qavraması və bunun əsasında bir-birini anlaması ünsiyyətin əsas xüsusiyyətləridir. Pedaqoji ünsiyyətin vəzifələrə görə iki növünü diqqətə çatdırmaq istəyirik: bu pedaqoji ünsiyyətin informasiya mübadiləsinin təşkil olunması və şəxsiyyətlərarası anlama, digər adamın davranışını tənzimləməsi. Məzmununa görə isə təşkiledici, qiymətləndirici, intizamyaradıcı və s. Ünsiyyətin məzmunu təlim prosesində müəllimin qarşıya qoyduğu məqsədlə müəyyən edilir.

Motivasiya – özünü şəxsi və ya ictimai məqsədlərə nail olmaq üçün fəaliyyətə vadar etmə prosesidir.

Sərbəstlik – bizim fikir və düşüncələrimizi elan edən yeganə vasitəçidir.

**İşin elmi nəticəsi:** Hərəkətlərin sərbəst şüurlu mənəvi motivasiyası və onun real həyata keçirilməsi zəruridir.

Təhsildə motivasiya həm bioloji, həm də sosial elementlərə əsaslanan mürəkkəb bir sistemdir. Motivasiya strukturu iyerarxik tabeçilik, çoxmotivlilik, ehtiyaclara münasibətdə motivlərin polivalentliyi və bir-birini əvəz etmə qabiliyyəti ilə xarakterizə olunur. Həm daxili, həm də xarici amillərin təsiri altında inkişaf edir.

Təhsildə məhsuldar fəaliyyət üçün motivasiyanın istiqamətləndirməsi və icrasının tənzimlənməsinin təmin olunması sabit sistemdir. Bu, daxili və xarici motivlərin iyerarxiyasını, məqsədlərin qoyulmasını və bu məqsədlərin həyata keçirilməsinə yönəlmiş konkret hərəkətlərin planlaşdırılmasını, fəaliyyətin həyata keçirilməsi zamanı yaranan çətinliklərə və uğursuzluqlara cavab vermək strategiyalarını ehtiva edən mürəkkəb dinamik bir prosesdir.

**İşin elmi yeniliyi:** Motivasiya və müstəqilliyin öyrənilməsinin elmi aktuallığı bir sıra amillərlə bağlıdır: Təhsildə motivasiya və sərbəstliyin, müstəqilliyin öyrənilməsi, onun elmi aktuallığı, tələbələrin davranışları və onların nailiyyətlərini, müvəffəqiyyət və uğur qazanmalarına kömək edir. Bundan əlavə, təhsildə daimi dəyişiklikləri nəzərə alaraq, motivasiya nəzəriyyələrinin əlavə öyrənilməsini və uyğunlaşdırılmasını tələb edən yeni motivasiya amilləri meydana çıxır. Motivasiya müxtəlif keyfiyyətlərə və bu keyfiyyətlər isə müxtəlif dərəcələrə malikdir. Motivasiya və sərbəstlik fəaliyyətin tənzimlənməsi strukturunda motiv, məqsəd və məna arasındakı əlaqədir.

**İşin tətbiqi əhəmiyyəti:** Motivasiya və sərbəstliyin mənasının tətbiq edilməsi aşağıdakı istiqamətləri ehtiva edir: Motivasiya insanı istiqamətləndirən və onu aktiv olmağa və ya müəyyən bir işlə məşğul olmağa sövq edən məqsədə çatmağın səbəbidir. Daxili motivasiya daha güclü hesab olunur, çünki o, insanın öz istəklərinə nail olmağa kömək edir. Xarici motivasiya nümunələrinə təhsildə yüksəlmə daxildir. Sərbəstliyin təmin edilməsi motivasiyanı artırır. Bu, tələbələrin və ya şagirdlərin iddialı, aktiv və maraq göstərməsindən irəli gəlir. Onları təkcə xarici amilləri deyil, həm də vəzifələri yerinə yetirmək və məsuliyyət götürməklə stimullaşdırırlar. Bəzən dərsin keyfiyyətini yüksəltmək üçün tələbələrə daha çox sərbəstlik verilməlidir.

### Ədəbiyyat

1. Əhmədov, H.H. Azərbaycan təhsilinin inkişaf strategiyası / H.H.Əhmədov, – Bakı: Elm, 2010. 799 s.
2. Əliyev, M. İnsan resurslarının idarə edilməsi. Ali məktəblər üçün dərs vəsaiti / M.Əliyev, H.Həmidov. – Bakı, – 2002, – 251 s.
3. Bayramova, Ü. Tələbələrdə öyrənmə motivasiyasının və istəyinin artırılması / Ü. Bayramova. – 2007, – 278 s.
4. Stipek, D. Öyrənmək üçün Motivasiya – Nəzəriyyədən Təcrübəyə / D.Stipek, – ABŞ: Allyn and Bacon A Viacom Company. – 1998.
5. Heckhausen, J. Мотивация и саморегуляция на протяжении всей жизни / J.Heckhausen, C.S.Dweck [Eds.] – Кембридж: Пресса Кембриджского университета, – 1998.
6. Дуэк, К. Гибкое сознание. Новый взгляд на психологию развития взрослых и детей / К.Дуэк, 2012 – Москва, – 2013.

**G.H.Mehdiyeva**

## Freedom and Motivation in Education

***Summary***

The article talks about external and internal motivation. The opposite of extrinsic motivation is intrinsic motivation. At this time, a person does what he needs (for example, he is interested or excited - he wants to test himself). However, in order to develop intrinsic motivation, one feels the choice to feel a certain freedom of action. Simply put, man needs freedom. Better learning outcomes – research shows that freedom leads to the development of intrinsic motivation and well-being. This affects not only the grades a student receives, but also their overall desire for education. Motivation is a set of factors that cause a person to work towards a certain goal. The concept of motivation is studied by sociology, biology and political science. Motivation is built around human needs and constantly develops while trying to satisfy them, moves to the next stage of the hierarchy of needs and is the main source of human activity. This also applies to cognitive and practical activities. Motivation is extrinsic and intrinsic. In the first case, it is related to external conditions, and in the second case, it is related to internal motives. Motivation is positive

and negative. Research shows that intrinsically motivated people are more successful in life than extrinsically motivated people. Those who are extrinsically motivated will not perform well when extrinsic motivation ceases. Scientists support the theory of intrinsic and extrinsic motivation. This theory manifests itself in people's behavior as a result of the influence of external or internal factors. In organizing any activity, motivation is very important to inspire yourself and others to do something. The study of motivation is of great importance. This essentially means studying people based on their activities and specific characteristics. A specific feature of human activity is that it is always purposeful. Motivation (Latin movere – means to move, push) refers to the factors that prompt a person to act in connection with the satisfaction of needs. Motivation drives a person to action and determines his direction of action. These two aspects are united with each other and appear as the main functions of motivation. Motivation differs from each other according to the type of need manifested in them, the forms they take, their breadth or limitation, and the specific content of the activity. Complex types of activities, as a rule, respond not to one motive, but to several motives that operate simultaneously and interact, which constitutes an undiversified motivational system of human actions and deeds.

***Key words:*** *Motivation, student, self-government, composure, teacher, professionalism, modesty*

**Г.Г.Мехтиева**

**Независимость и мотивация в образовании**

***Резюме***

В статье говорится о внешней и внутренней мотивации. Противоположностью внешней мотивации является внутренняя мотивация. В это время человек делает то, что ему нужно (например, ему интересно или интересно – он хочет проверить себя). Однако для развития внутренней мотивации человек чувствует возможность ощутить определенную свободу действий. Проще говоря, человеку нужна свобода. Лучшие результаты обучения: исследования показывают, что свобода ведет к развитию внутренней мотивации и благополучия. Это влияет не только на оценки, получаемые учеником, но и на общее стремление к образованию. Мотивация – это совокупность факторов, которые заставляют человека работать для достижения определенной цели. Понятие мотивации изучается социологией, биологией и политологией. Мотивация строится вокруг потребностей человека и постоянно развивается при попытках их удовлетворения, переходит на следующую ступень иерархии потребностей и является основным источником активности человека. Это касается и познавательной и практической деятельности. Мотивация бывает внешняя и внутренняя. В первом случае оно связано с внешними условиями, а во втором – с внутренними мотивами. Мотивация бывает положительной и отрицательной. Исследования показывают, что люди с внутренней мотивацией более успешны в жизни, чем люди с внешней мотивацией. Те, кто имеет внешнюю мотивацию, не смогут добиться хороших результатов, если внешняя мотивация отключена. Ученые поддерживают теорию внутренней и внешней мотивации. Эта теория проявляется в поведении людей в результате влияния внешних или внутренних факторов. В организации любой деятельности очень важна мотивация, чтобы вдохновить себя и других на что-то. Изучение мотивации имеет большое значение. По сути, это означает изучение людей на основе их деятельности и конкретных особенностей. Специфической особенностью человеческой деятельности является то, что она всегда целенаправленна. Мотивация (от лат. movere – значит двигать, толкать) относится к факторам, побуждающим человека действовать в связи с удовлетворением потребностей. Мотивация побуждает человека к действию и определяет направление его действия. Эти два аспекта образуют единство друг с другом и представляют собой основные функции мотивации. Мотивации отличаются друг от друга по типу проявляющейся в них потребности, формам, которые они принимают, широте или ограниченности, а также конкретному содержанию деятельности. Сложные виды деятельности, как правило, отвечают не одному мотиву, а нескольким мотивам, действующим одновременно и взаимодействующим, что составляет неразнообразную мотивационную систему действий и поступков человека.

***Ключевые слова:*** *Мотивация, ученик, студент, самообладание, хладнокровие, преподаватель, профессионализм, смирение*

*Rəyçi: filol.f.d., dos. N.F.Sadıqzadə*
*Redaksiyaya daxil olub: 30.09.2024*